# Qarşılıqlı hörmət və etimadın təzahürü

## Azərbaycanla Rusiya arasında bütün məsələlər düşünülmüş siyasət, qarşılıqlı etimad formatında gerçəkləşir

**"Sülhməramlı kontingentin Azərbaycandan çıxarılmasından sonra Prezident İlham Əliyevin Rusiyaya səfərə getməsi iki ölkə liderinin qarşılıqlı hörmət və etimadını əks etdirir. Qərbin qızışdırıcı mövqeyi nəticəsində Rusiya ilə qeyri-bərabər mübarizəyə girmiş qonşu ölkələrin acınacaqlı taleyi Azərbaycanın nə qədər düzgün siyasət yürütdüyünü bir daha ortaya qoydu. Prezident İlham Əliyev böyük dövlətlərlə "mən sənə təhlükəli deyiləm" prinsipi üzrə davranmağın praktik nümunəsini göstərdi".**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Fazil Mustafa deyib. Deputat bildirib ki, dövlət başçısı təkcə Rusiyaya deyil, həm də ABŞ və Avropa İttifaqına münasibətdə də eyni mövqeni sərgiləyir. Azərbaycanın əsas siyasi xətti ondan ibarətdir ki, müstəqil dövlət olaraq tamamilə müstəqil siyasət yürüdür, eyni zamanda başqaları üçün təhlükəli rol oynamır. Görünən odur ki, xüsusilə böyük dövlətlər bunu anlayışla qarşılayır



və bizim "qırmızı xətt"imizi qəbul edirlər. Azərbaycanın müstəqil siyasət yürütməsi ilə bağlı atdığı addımlara verilən beynəlxalq dəstək də məhz buradan qaynaqlanır.

Deputatın sözlərinə görə, Rusiya sülhməramlılarının Qarabağı tərk etməsindən sonra bu görüşün baş tutması bir daha göstərdi ki, məsələlər ağıllı siyasət və doğru danışıqlar formatında gerçəkləşir. "Bir çox qüvvələr də bu siyasi təcrübəni özləri üçün artıq ciddi nümunəyə çevirməlidirlər. Çünki regionun lideri olan Azərbaycanın qlobal liderlərlə müəyyən rəqabət içində olması və bunun özümüzə qarşı hansısa zorakılıq, yaxud da təzyiq alətinə çevrilməsinə imkan verməməyimizdən daha müdrik strategiya tapmaq olmaz", - deyə o əlavə edib.

F.Mustafa vurğulayıb ki, bu istiqamətdə göstərilən səyləri yüksək qiymətləndirməli və Prezidentin bu məsələdə çox doğru strategiya yürütdüyünü etiraf etməliyik. Xüsusilə də Ukrayna və Gürcüstanla münasibətlər kontekstində müqayisə aparsaq, görərik ki, Azərbaycanın bu siyasəti həqiqətən də alternativsizdir. Bu mənada Rusiya ilə münasibətlərin indiki mərhələsi bizim üçün qaneedicidir.

Deputat onu da deyib ki, bu səfərin Ermənistanın Qərblə münasibətlərdə xüsusi bir üstünlük qazanmadan Rusiya ilə əlaqələrini heçə endirməsi şəraitində baş verməsi təqdirəlayiqdir: "Bu məqam da Azərbaycanın məntiqli siyasətinin tərkib hissəsidir. Bu səfər bir daha sübuta yetirdi ki, Azərbaycanın xarici siyasəti çoxistiqamətlidir. Biz qonşu dövlətlərlə münasibətlərdə etibarlılığa və qarşılıqlı faydalı əməkdaşlığa üstünlük veririk".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 26 aprel, № 84.- S.11.